# XALQ RƏQSLƏRİNDƏ
## MİLLİ-ESTETİK XÜSUSİYYƏTLƏR



**Mahnı, musiqi qədər, incəsənət, mədəniyyət qədər insanları bir-birinə heç nə bağlamır. İncəsənətin, mədəniyyətin, xüsusən də, mahnının, musiqinin oynadığı rolu heç bir vasitə oynaya bilməz.**

**Heydər ƏLİYEV**

İncəsənətin ən geniş yayılmış janrlarından biri də rəqs sənətidir. Ta qədim zamanlardan günümüzə qədər rəqs mahiyyəti və görünüşü ilə insanların diqqətini çəkməkdədir. O, sadəcə ağla gələn hər hansı bir hərəkət demək deyil. Bu hərəkətlərlə insanlar bir çox məqamları izah edə və daxili aləmini göstərə bilirlər. İnsan rəqs etdiyi zaman, sözün əsl mənasında, başqa bir dünyaya düşür və unudulmaz anlar yaşayır. Bunu ancaq rəqsi dərk edə bilənlər duyur.

Rəqs sənəti qədim dövrlərdə yaranmış, inkişaf etmiş, insanların həyat tərzinin, estetik zövqünün ayrılmaz bir parçası olmuşdur.

Xalq rəqsləri Azərbaycan milli instrumental musiqimizin əsasıdır. Rəqslər xalq tərəfindən yaranıb əsrlərdən bəri şifahi halda nəsildən-nəslə keçmişdir. Azərbaycan instrumental xalq rəqs musiqisi üçün melodiya zənginliyi, quruluşunun simmetrikliyi, diapozon müxtəlifliyi, tədrici inkişaf, təkrar, variasiya və sekvensiya metodu səciyyəvidir. Rəqslər özünəməxsus lad əsası, metro-ritmik xüsusiyyətləri və rəngarəng formaları ilə seçilirlər. Xalq mahnılarında olduğu kimi rəqslərdə də xalqın hissləri, duyğuları, xasiyyəti, temperamenti əks olunmuşdur.

Rəqsi insanı rahatlaşdıran, yüngülləşdirən və onu stresdən çıxaran ən yaxşı vasitələrdən biri də saymaq olar.

Azərbaycanda xalq rəqs sənətinin yaranması və formalaşması prosesi öz kökləri ilə qədim dövrlərə gedib çıxır. İlk rəqslər ritual və ov rəqsləri olub. Bunlar Qobustandakı 8-10 minillik qaya təsvirlərindən bəlli olur: "Ov səhnəsi", "Rəqs edən insanlar qrupunun silueti", qədim xorovodu xatırladan yallı (e.ə.V-III minilliklər, Qobustan). Uzaq keçmişdən həmçinin günümüzədək kütləvi mərasim rəqsləri-"Səməni", "Xıdır İlyas", "Kosa-kosa", "Qodu-qodu" və s. gəlib çıxmışdır. Böyük bir ehtimalla, bu rəqslər günəşə, aya, atəşə, suya inanc məqsədi ilə dini mərasimlər şəklin-

də edilirdi. Onlarda bir sənət ustalığı yox idi. Araşdırmalar nəticəsində məlum olmuşdur ki, eramızdan 2-3 min il əvvəl, Tunc dövründə Azərbaycanda rəqs sənəti artıq insanların məişətində, adət-ənənəsində müəyyən mövqe tutmuşdur. Bunların bəzisi əslində dini mərasim üçün və ya müharibəyə hazırlıq üçün yaradılsa da, sonralar yalnız şənlik məclislərində göstəriliblər. Dünyanın bir çox inkişafda olan ölkələrində olduğu kimi, Azərbaycanda da sadə və ibtidai xalq musiqi alətləri meydana gəlməzdən çox-çox əvvəl rəqs tamaşaçıların çəpik çalmaları ilə əldə edilən ritmik zərblərin mahiyyəti ilə yaranıb. Müxtəlif peşələrlə, hətta ovçuluqla məşğul olan tayfalar öz sehrli ayinlərini çeviklik, qıvraqlıq, insan gücünü nümayiş etdirən plastik hərəkətlərdən ibarət rəqslərlə həyata keçirirdilər. Beləliklə, dünyanın bir çox yerlərində olduğu kimi, Azərbaycanda da rəqs sənətinin müxtəlif növləri və janrları öz mahiyyətini şifahi xalq ədəbiyyatının bir qolu olan xalq rəqslərindən götürüb.

Erkən orta əsrlər dövründə bu mərasim rəqslərindən müxtəlif növ xalq rəqsləri formalaşır. Knyazların və Azərbaycan hakimlərinin saraylarında rəqqasələrin yüksək məharəti ilə şöhrət tapmış rəqs ansamblları mövcud idi.

Qədim rəqs melodiya və formaları zaman içində ifaçıların fantaziyaları, adət və ənənələri ilə bağlı olaraq dəyişikliyə uğrayaraq, yeni xarakterlər qazanaraq nəsildən-nəslə keçmişdir. Azərbaycanlılar həm müxtəlif mərasimlərlə, həm təbiətlə, həm də ölümlə bağlı çoxlu oyun-tamaşalar yaratmış və onu mədəniyyətimizin ayrılmaz bir qolu kimi inkişaf etdirmişlər. Bu inkişaf fərdiliyini saxlamaqla yanaşı, dünya oyun mədəniyyəti prosesinin üzvi qolu olmuşdur. Milli sərvətimizin mədəni qollarından biri də geniş kütləvilik qazanmış etnomədəni oyun-tamaşalardır. (İlham Rəhimli "Xalq oyun-tamaşaları". QAPP-POLİQRAF, 2002) Yuğ, sayaçı, qaravəlli, məzhəkə, məsxərə, dərvişlik, hoqqa və s. ən qədim oyun-tamaşalardandır. Xalq rəqslərimiz də məhz bu oyun-tamaşaların əsasında yaranmışdır.

Azərbaycan xalq rəqsləri mövzu baxımından çox rəngarəngdir. Onlar bu növlərə bölünür-əmək ("Çobanı"), mərasim (ritual, təqvim, toy), məişət ("Mirzəyi", "Turacı"), qəhrəmanlıq, hərbi ("Cəngi"-"Döyüş"), idman ("Zorxana"), xorovod-oyun ("Yallı", "Halay") və s. Azərbaycan xalq rəqsi, bir qayda olaraq 3 hissədən ibarətdir: birinci hissə sürətlidir, dairə üzrə rəqs; ikinci hissə lirikdir, rəqqas sanki yerində donub qalır (süzür), korpus qəti və vüqarlı tərzdə dik tutulur; üçüncü hissədə-yenə dairə üzrə rəqs, sürətli, təntənəli və böyük emosional coşğunluqla səciyyəvi olur.

Qədimdən toy məclislərində seçilən istedadlı oğlan və qız uşaqları təcrübəli rəqs ustaları tərəfindən yetişdirilirdi. Öz proqramı olan ilk ansambl bu şəkildə başladı və zaman keçdikcə inkişaf etmiş, təkmilləşmiş və tədricən professional rəqs topluluqları yaranmışdır.

1890-cı ildə Şuşada məşhur tar ustadı Sadıqcan musiqi ansamblı qurmuşdur. Repertuarında Azərbaycan, gürcü və s. xalqların rəqsləri vardı. Milli geyimləri və rəqs sırasında bıçaq, qılınc ilə göstərdikləri bacarıq və məharətləri çox bəyənilirdi. Onların ən yayılmış məşhur rəqslərindən biri "Heyratı" idi. İlk rəsmi ansambl (qrup, topluluq) bu idi.

1930-cu ilə qədər professional rəqqaslar, müxtəlif yerlərdə əsas mənada xalq rəqsi olmasa da "Ləzginka", "Şalaxo", "Mirzəyi" kimi rəqsləri çox ifa edirdilər. Məşhur rəqqas Əşrəf Səfərov 1935-ci ildə professional bir Azərbaycan rəqs topluluğu qurulması üçün təklif verdi, qəbul edildi, seçmələrə gələn altmış adamdan on altısı seçildi (Əlibaba Abdullayev, Əminə Dilbazi, Hacı Ağayev, Əşrəf Səfərov, Hüdziyə İbrahimova, Nəsibə Talibova və s.). Və bu qrup səhnə fəaliyyətlərinə başladı, bir çox bölgələrdən məlumatlar da topladılar. Çox təəssüf ki, təcrübəli folklor mütəxəssisləri olmadığından məlumatlar qeydə alınmamış və zamanla da bəzi xalq rəqsləri öz xüsusiyyətlərini itirmişdilər. Professional səhnələrdə uzun illər topluluğun repertuarını təşkil edən ilk rəqslər bunlardır: "Ceyranbala", "Vağzalı-Mirzəyi", "İnnabı", "Qazağı", "Ənzəli", "Uzundərə", "Tərəkəmə", "Turacı", "Alma", "Lalə", "Dəsmalı".

1936-cı ildə Üzeyir Hacıbəyovun təşəbbüsü ilə Bakıda ilk dəfə professional artistlərdən ibarət Azərbaycan mahnı və rəqs topluluğu yaradıldı. Bunlar Azərbaycanın şəhər və kəndlərinə gedərək rəqs materiallarını topladılar. G.Almaszadə 1959-cu ildə "Azərbaycan Xalq Rəqsləri" adı altında



qaynaq ola biləcək bir kitab nəşr etdirdi. Kamal Həsənov milli xalq rəqslərinin tarixini, çıxış səbəblərini öyrənə bilmək məqsədi ilə qədim rəqs melodiyalarını, oyun havalarını dinləmiş, yaşlılarla söhbət edərək qədim Azərbaycan rəqslərini canlandırmağa çalışmışdır.

1970-ci ildə Bakıda Azərbaycan xalq rəqslərini daha geniş bir kütləyə çatdırmaq üçün yeni Dövlət rəqs Topluluğu yaradıldı. Bu qrupa böyük ifaçılar qəbul edildi. Ayrıca Dövlət Opera və balet topluluqları da əsərlərində xalq rəqslərinə yer verərək, onların daha da inkişaf etmələrinə imkan yaratmışlar.

Beləliklə də, xalq rəqslərimiz bugünkü günümüzə qədər qorunub-saxlanmışdır.

Müasir dövrdə isə Azərbaycan xalq rəqslərini səhnəyə çıxarmaq və inkişaf etdirmək ağırlığını Əminə Dilbazi, Roza Cəlilova, Xoşbəxt Məmmədova, Böyükağa Məmmədov, Kamil Dadaşov, Əlikram Aslanov və digər sənətkarlar çiyinləri üzərinə götürüb. Bir-birindən maraqlı, məzmunlu xalq rəqslərimiz nəinki vətəndə, dünyanın böyük konsert salonlarında da sevilib, onların simasında Azərbaycan milli xoreoqrafiya sənəti inkişaf yolunu tapıb. İncəsənətin ayrılmaz hissəsi olan milli rəqslərimiz gözəlliyi, bədiiliyi və zərifliyi ilə sənətsevərlərə nümayiş olunur. Folklor, qədim xalq oyunları, rəqs havaları milli incəsənətimizin qızıl fonduna həmişəlik daxil olub. "Tərəkəmə", "Naz eləmə", "Turacı", "Uzundərə", "Qoçəli", "Heyvagülü", "Vağzalı" xalq rəqslərinə tamaşa etmək kifayətdir ki, xalqımızın zəngin musiqiyə, köklü adət-ənənəyə bağlı olduğunu duyasan. Filmlərdə rəqslərdən elementlərə də rast gəlmək olar ki, bu da milli rəqs sənətinin inkişafı və təbliğində mühüm rol oynayır. "O olmasın, bu olsun", "Əhməd haradadır", "Bəyin oğurlanması","Arşın mal alan" və digər belə filmlərdə milli rəqslərə yer verilib. Bütün dünya xalqlarını öz gözəlliyi ilə heyrətə gətirən rəqslərimizi, bu gün qocaman sənətkarların yetirmələri davam etdirir. Bir sözlə, Azərbaycanın milli rəqs məktəbi yaşayır.

Rəqs sənəti xalqın iqtisadi, ictimai və mənəvi həyatında meydana gələn dəyişikliklərlə əlaqədar olaraq yeni məzmun və istifadə vasitələri əldə edir. Azərbaycan xalq rəqsləri tariximizlə ayrılmaz surətdə bağlı olub, onun milli xüsusiyyətini, həm də həyat və məişətini özündə əks etdirir. Bu da ölkənin tarixində, mədəniyyətində rəqs sənətinin nə dərəcədə böyük əhəmiyyətə malik olduğunu göstərir. Milli rəqslərimizə xas olan və onu başqa xalqların rəqslərindən fərqləndirən səciyyəvi cəhətlər sözsüz ki var. Azərbaycanın tanınmış rəqqasları öz ifalarında milli elementləri qoruyub saxlamaqla milli rəqsi xeyli inkişaf etdirə bilmişlər. Bu rəqslər vasitəsilə hər kəs öz daxilində mənini taparaq, xalqına məxsus olan mənəvi-əxlaqi dəyərləri dərk edə bilər.

Azərbaycan toyu demək olar ki, fasiləsiz musiqi, oyun və rəqs deməkdir. Bütün bunlara baxmayaraq, kütlə arasında rəqs haqqında anlayış çox azdır. Yəni toy və başqa məclislərdə daim eyni hərəkətlər edirlər. Çünki əslində rəqsdə hansı hərəkətlərin mövcudluğundan xəbərsizdirlər. Bu tövsiyəni yazmaqda məqsədimiz də məhz milli rəqslərimiz, onun milli-estetik xüsusiyyətləri, tarixi, inkişaf mərhələləri və s. haqqında məlumat verməkdir.

Odur ki, mədəniyyət müəssisəsində "Rəqs bir həyatdır" adlı klubunun təşkil edilməsi məqsədəuyğundur və bu maraq klubunun fəaliyyətinə kömək məqsədilə iş planına aşağıda göstərilən tədbirlərin daxil edilməsini tövsiyə edirik. Tədbirlərə keçmədən öncə qeyd etmək lazımdır ki, rəqs və onun görünüşü vəhdət təşkil etməlidir. Rəqsin daxili məzmununun açılması üçün musiqinin ritminə uyğun geyimlər verilməlidir.

Həyat inandırıcı şəkildə göstərir ki, öz istedadı ilə tanınmış yüzlərlə sənətkarımızın ilk sənət beşiyi məhz klub müəssisələrindəki özfəaliyyət dərnəkləri olmuşdur. Klub müəssisələrində yeniyetmələr və gənclər incəsənətin müxtəlif janrlarından bəhrələnərək mənəvi zənginləşmək, müxtəlif mədəni tədbirlərdə iştirak etmək və öz asudə vaxtlarını səmərəli keçirmək imkanı əldə edirlər.

Mədəniyyət müəssisələrində xalq yaradıcılığının bütün sahələri arasında bədii özfəaliyyət kollektivi əsas yerlərdən birini tutur. Onun inkişaf səviyyəsi, səmərəli çıxışı mədəni-maarif işinin səmərəliyinin həlledici göstəricisi hesab edilir.

Ümumiyyətlə, rəqs sənəti incəsənətin zirvəsi, yüksək mərhələsi hesab edilir. Təsadüfi deyildir ki, qədim yunan filosofları onu "sözsüz poeziya"



adlandırmışlar.

1. Odur ki, **"Sözsüz poeziya"** adlı tədbir keçirtmək olar. Bu tədbirdə "Uzundərə" rəqsinin teatrlaşdırılmış konsertini təşkil etmək maraqlı olar. Bu tədbirin müvəffəqiyyətlə keçirilməsinin əsas şərti ssenarinin yazılmasıdır. Ssenaridə gecənin keçirilməsinin ardıcıllığı və tərtibatı göstərilir.

Ssenarinin hazırlanmasına yaradıcı fərasətə və yaxşı fantaziyaya malik olan şəxsləri, mədəniyyət müəssisəsinin idarə heyətinin üzvlərini cəlb etmək lazımdır. Həmçinin mədəniyyət müəssisəsinin özfəaliyyət kollektivlərinin üzvləri və yaxınlıqda olan məktəbin 9-10-cu sinif şagirdləri ilə birgə bu tədbir keçirilə bilər. Səhnələrin ifasına və təşkil edilməsinə xüsusi fikir verilməlidir. Hər bir iştirakçıya müəyyən obrazın siması verilməsinə, səhnədə davranış xətti olmasına cəhd edilməlidir. Tədbirin təntənəli və maraqlı keçməsi üçün teatr aktyorlarını, rəqqas və rəqqasələri dəvət etmək olar.

Kömək məqsədilə qısa olaraq "Uzundərə" rəqsinin tarixini qeyd etmək istəyirik.

Deyilənə görə "Uzundərə" rəqsi bir toy zamanı yaranıb. Çox-çox illər bundan əvvəl, maşın olmadığı vaxtda Qarabağda gəlin aparırlarmış. Yol çox uzun olduğundan gəlini uzun bir dərənin içindən piyada aparırlar. Bu zaman musiqiçilər gəlinin lirik bir musiqi ilə müşayiət edirlər. O zamandan başlayaraq toylarda həmin musiqiyə oynamaq istədikdə "gəlini o uzun dərənin içindən apardığımız zaman başlanan musiqini çalın" deyilir.

Beləliklə, "Uzundərə" oyun havası yaranır. Bu oyun havası bir az "Vağzalı" ya bənzəyir. Bu tədbirin sonunda tamaşaçılara broşürlər paylamaq olar ("Uzundərə" rəqsinin qısa tarixçəsi).

2. **"Rəqs dəyər kimi və rəqsin dəyəri"**. 2 fevral-gənclər günü münasibətilə "Yallı" rəqsinə həsr olunmuş gecənin təşkili. İlk öncə klubun idarə heyəti özfəaliyyət qrupunun rəhbərləri ilə birlikdə tədbirin gedişatı haqqında plan tərtib etməlidir.

Tədbirə mədəniyyət müəssisəsinin yaxınlığında yerləşən məktəbin müəllimlərindən və orada yaşayan sakinlərdən dəvət etmək olar.

Əvvəla, aparıcı "Yallı" rəqsi haqqında məlumat versin.

Qədim kollektiv rəqslərində ən geniş yayılanı "Yallı" dır ki, öz kökü ilə çox qədim dövrlərə gedib çıxır.

3. **"İdeal rəqqaslar"**

29 aprel- bu gün 1982-ci ildən YUNESKO nun qərarı ilə Fransa baletmeysteri Jan Jorj Noverin ad günü şərəfinə qeyd olunur. Dünyanın əksər ölkələrində olduğu kimi, Azərbaycanda da Beynəlxalq rəqs günü təsis olduğu tarixdən ənənəvi olaraq hər il qeyd olunur.

29 aprel - Beynəlxalq rəqs günü münasibətilə rəqs kollektivləri festivalı keçirtmək yerinə düşər. Festivalda başqa xalqların rəqslərindən də istifadə etmək lazımdır. Festivala maraq və rəngarənglik bəxş etmək üçün müsabiqələr keçirtmək və konsertlər təşkil etmək olar. Konsertlərin təntənəli keçirilməsi üçün tanınmış rəqqaslar və müğənniləri dəvət etmək məqsədəuyğundur. Həmçinin qadın və kişilərlə birgə olan rəqslər nümayiş etdirilməlidir. Məsələn, "Yordu-yordu".

4. **"Estetik zövq və gözəllik"**. 18 yanvar 1947-ci il. Azərbaycan rəqqasəsi, xalq artisti Afaq Süleyman qızı Məlikova anadan olub.

1963-1974-cü illərdə Azərbaycan Dövlət Mahnı və Rəqs Ansamblının solisti olub. Əsasən, xalq rəqslərinin ifaçısı olan A.Məlikovanın repertuarına Şərq xalqlarının rəqsləri daxildir. Bir sıra xarici ölkədə (Türkiyə, MƏR, PXR, Fransa, İngiltərə, Kanada, Portuqaliya və s) çıxış edib.

Odur ki, bu tədbirdə Afaq Məlikovaya həsr edilmiş gecə təşkil etmək olar. Yaxşı olar ki, 2 aparıcı olsun və həzin musiqi sədaları altında onun həyat və fəaliyyəti haqqında geniş şəkildə danışsınlar. Səhnəni güllərlə bəzəmək və divardan onun şəkillərini, hətta rəqs edərək çəkilən şəkillərini asmaq tamaşaçılara xüsusi zövq verər.

A.Məlikovanın tələbələrini, pərəstişkarlarını, mədəniyyət müəssisəsinin yaxınlığında yaşayan orta məktəb şagirdlərini, həmçinin məktəbin müəllimlərini və sənət yoldaşlarını tədbirə dəvət etsəniz daha təntənəli və maraqlı olar. Və tədbirin sonunda konsert təşkil etmək olar. Bu konsertdə həm müğənnilər, həm də rəqqaslar iştirak etsələr daha maraqlı olar.

5. **"Meydan sənindir"** adlı uşaq incəsənət məktəbləri şagirdlərinin arasında keçirilən intellektual oyun.

Bu tədbirdə şagirdlər milli və dünya rəqslərinə aid suallara cavab verməlidirlər. Sualların cavabları variantlar şəklində iştirakçılara təqdim olunacaqdır. Hər məktəb öz iştirakçılarını komanda şəklində təqdim etməlidirlər. Oyunun maraqlı keçməsi üçün hər məktəbin öz komandasına ad qoyması daha məqsədəuyğun olardı.

Mədəniyyət müəssisəsinin və özfəaliyyət qrupunun rəhbərləri əsasnamə tərtib etməlidirlər. Bu əsasnamədə hər bir komandanın sayı və oyunçuların adı, həmçinin oyunun proqramı yazılmalıdır.

Bir neçə sualı təqdim etmək istərdik:

1. Məşədi İbadın toyunda oynadığı rəqs necə adlanır?

-"Uzundərə", -"Qoçəli", -"Qaytağı".

2. 1930-cu ilə qədər professional rəqqaslar "Ləzginka", "Şalaxo", "Mirzəyi" kimi rəqsləri ifa edərdilər. Məşhur rəqqas Əşrəf Səfərov 1935-ci ildə professional Azərbaycan rəqs topluluğu qurdu və 60 nəfərdən 16-sı seçildi. Onlardan kimləri tanıyırsınız? (ən azı 4 nəfərin adı çəkilməlidir).

3. Cənubi Amerika rəqsi necə adlanır?

-Tanqo, - Vals, - Caz, - Sambo.

4. Qızların çay dəsti ilə oynadığı rəqs necə adlanır?

5. "Yallı" nın növü hansıdır?

-"Tərəkəmə", "Qənimo", "Çalpapaq", "Naz-nazı".

6. "Ürfani" hansı rəqsin növüdür?

- "Vals", "Milli rəqs", "Yallı", "Şərq rəqsi".

7. "Möcüzələr adası" filmində hansı rəqsdən bəhs edilir?

"Alçagülü", "İnnabı", "Qoçəli", "Üç badam, bir qoz".

8. Ümumiyyətlə, ən məşhur xalq rəqslərindən hansılarını tanıyırsınız?

9. Qədim kollektiv rəqslərdən ən geniş yayılanı hansıdır?

- "Toy rəqsi", "Yallı", "İran təranələri", "Papaq".

10. Öz ifalarında milli elementləri qoruyub saxlayan məşhur rəqqaslar hansılardır? (1-2 nəfərin adı çəkilsin).

6 .**"Aləmdə səsim var mənim"**. 8 mart Beynəlxalq qadınlar günü münasibətilə qadın rəqslərinə həsr olunmuş konsert proqramı.

Bayram şənliyinin təşkil olunmasında ilk addım tədbirin gedişatı haqqında plan tərtib etmək və aparıcı təyin etməkdən ibarətdir. Bu şənliyin daha baxımlı olması üçün plana müxtəlif rəqslər, mahnılar, şeirlər, eləcə də hər hansı bir rəqqasənin həyatı haqqında söhbətlər salmaq olar. Tədbirin əvvəlində aparıcı konkret bir qadın rəqsi (məs. "Nəlbəki", "Ceyranı", "Turacı") və o rəqsin müəllifi haqqında danışmalıdır.

Qadın rəqsinin inkişafı kostyumla şərtlənmişdir: uzun yubka ayaqların süzgün hərəkətini müəyyənləşdirir, rəqqasələrin bütün diqqəti əl və korpusun yuxarı hissəsinin (çiyinlər, baş, üzün mimikası və s.) işlənmiş texnikasına cəmlənir.

Xalq rəqsləri arasında qadın rəqsləri özünün lirikliyi, zərifliyi, incəliyi ilə seçilir. Məsələn, "Vağzalı", "Uzundərə".

Tədbirin təbliğində əsas vasitə kimi dəvətnamələr düzəltmək olar. Orada KİV nümayəndələrinin iştirakı üçün şərait yaradılmalıdır.

● **Səidə MİRZƏYEVA,**
● **Selcan NƏSİROVA,**
***Mədəniyyətşünaslıq üzrə Elmi-Metodiki Mərkəzin əməkdaşları***